UOT 792.03
https://doi.org/10.59849/2311-8482.2024.3.201

NURİYYƏ HÜSEYNOVA*

# "MAHNI" JANRI İLƏ "TƏSNİF"İN OXŞAR VƏ FƏRQLİ XÜSUSİYYƏTLƏRİ

*Məqalədə ayrı-ayrı janrlara aid edilən "mahnı" ilə "təsnif"in oxşar və fərqli xüsusiyyətləri geniş şəkildə tədqiq olunmuşdur. İlk öncə onların forması, quruluş tərkibi haqqında məlumat verilmiş, daha sonra "təsnif"in muğam dəstgahlarının tərkibindəki mahiyyəti açıqlanmışdır.*

*Professional musiqiyə aid edilən "təsnif"in bəstəkar tərəfindən yazılmasının üstün cəhətləri haqqında, eləcə də onun tərkibindəki müvəqqəti yönəlmə ilə yaranan məqam dəyişiklikləri barədə məqalədə maraqlı faktlar şərh olunmuşdur.*

*Məqalədə nümunə kimi təqdim edilən mahnı və təsniflər dəyərli mənbələrdə öz əksini tapan şeir mətnləri ilə işıqlandırılmışdır.*

***Açar sözlər:*** *mahnı, təsnif, forma, period, quruluş tərkibi, muğam şöbələri.*

## Giriş

Mahnı – musiqi ilə poeziyanın vəhdətindən yaranan, instrumental melodiyanın müşayiəti ilə vokal oxunuşda ifadə olunan musiqi janrıdır. Qısa anlamda, mahnı vokal ifa üçün yaranmış bir musiqi bəstəsidir.

Musiqidə həcm etibarı ilə ən kiçik janrlardan sayılan "mahnı"nın forması çox sadə quruluşa malikdir. Belə ki, hər bir mahnı öz tərkibindəki "bənd" və "nəqarət"in ardıcıllığı baxımından iki və ya üçhissəli formada təzahür olunur. İkihissəli sadə formada 1-ci "bənd" (A) adlanan hissənin ardınca "nəqarət" (B) hissəsi səslənir və 2-ci hissə ilə də tamamlanır. Üçhissəli formada isə "nəqarət"dən sonra melodiyanın yüksək (zil) tonlarında daha bir period (C), mahnının aid olduğu məqam çərçivəsində tamamilə fərqli intonasiyaya malik yeni bir "bənd" də ifa edilir, sonda isə yenə də "nəqarət"lə tamamlanır (ABCB).

## Əsas təhlil

Mahnıların quruluşunu araşdırarkən, ortaya çıxan maraqlı məqamlardan biri də ifa edilən əsərin ümumi məzmununda hissələrin say etibarilə fərqli düzülüşə malik olmasıdır. Məsələn, bəzi mahnılar iki və ya üç "bənd"dən və bir "nəqarət"dən ibarət olur. Burada şeir mətninin fərqli məzmuna malik hər "bənd"indən sonra eyni məzmunlu "nəqarət" ifa edilir. Nümunə kimi ikihissəli sadə formada yazılmış, musiqisi bəstəkar Tofiq Quliyevə, sözləri isə şair Zeynal Cabbarzadəyə məxsus "Axşam mahnısı" adlanan nəğməni göstərə bilərik; **[3; səh.45]**

**1-ci bənd:** Qaş qaralır, kölgə tutur
Yavaş-yavaş meşəni.
Gözüm yolda, könlüm səsdə,
Gözləyirəm mən səni.
Nəqarət: Səbrim getdi, harda qaldı?
Qaş qaraldı, gəlməyir.
Bəlkə mənim könlümdəki
Döyüntünü bilmədin?

**2-ci bənd:** Suya düşür budur, yaşıl
Yarpaqların kölgəsi.
Ürəyimdən xəbər verir
Ötən quşların səsi.

**Nəqarət**

**3-cü bənd:** Aydın göylər, uca dağlar,
Göy meşələr, lal sular,
Sizi gördüm, ürəyimdə
Aşdı-daşdı arzular.

**Nəqarət**

Lakin elə mahnılar da var ki, onların quruluşunda hər "bənd"dən sonra fərqli mətnə malik "nəqarət" ifa olunur. Belə nəğmələrdən məşhur "Azərbaycan maralı" xalq mahnısını nümunə göstərmək istərdik; **[1; səh.28]**

**1-ci bənd:** Ay qız, gəzmə aralı,
Könlüm səndən yaralı.
Gözlərinə heyranam,
Azərbaycan maralı.
**Nəqarət:** Sən bulaq üstə gələndə,
Qıyqacı baxıb güləndə,
Aldın səbri-qərarım,
Azərbaycan maralı.

**2-ci bənd:** Mən qurbanam gözlərə,
Şirin-şirin sözlərə.
Bir qonaq gəl bizlərə,
Azərbaycan maralı.
**Nəqarət:** O günə qurban kəsərəm,
Gəlməsən səndən küsərəm.
Gəzərəm səndən aralı,
Azərbaycan maralı.

**3-cü bənd:** Gedək Qırx qız yaylağına,
Maral, ceyran oylağına.
Enək İsa bulağına,
Azərbaycan maralı.
**Nəqarət:** Turşsu olsun yaylağımız,
Gözəl Şuşa oylağımız.
Sən olaydın qonağımız,
Azərbaycan maralı.

Azərbaycan musiqi yaradıcılığı bu gün iki istiqamətdə tədqiq olunmaqdadır: − xalq musiqisi və professional musiqi. Xalq (folklor) musiqisi şifahi ənənəyə əsaslanaraq, ustaddan şəyirdə öyrədilməklə nəsildən-nəsilə ötürülərək qərinələr adlayıb günümüzədək gəlib çatmışdır. Adından da anlaşılır ki, bu musiqi nümunələri xalq tərəfindən yaradılmışdır. Lakin belə musiqi nümunələri bu gün də yaradılmaqdadır və çox zaman onların müəllifləri musiqi savadı almamış, sadəcə yüksək istedada, musiqi duyumuna və yaradıcılıq bacarığına malik insanlar arasından üzə çıxır.

Keçmişdə not yazısının, eləcə də səsyazma cihazlarının olmaması səbəbindən xalq arasında yaranmış, mahnı və rəqs nümunələrinin, aşıq havalarının, muğam dəstgahlarının bir qismi unudulmuş, bir çox havaların adları, eləcə də bu havaların müəlliflərinin kimliyi zaman ötdükcə hafizələrdən silinmişdir.

Məlumdur ki, xalq musiqimiz ilk dəfə XIX əsrin əvvəllərində dahi bəstəkarımız Üzeyir Hacıbəyli tərəfindən toplanmağa və araşdırılmağa başlanmışdır. Məhz həmin dövrdən sonra nəşr olunan not məcmuələri, fonovaliklərə yazılmış ifalar xalq musiqi xəzinəmizin tərəqqisinə yol açdı. Artıq sovetlər dönəmində, 1960-cı illərdən üzü bəri xalq arasında yaranan və tezliklə məşhurlaşan, insanların sevə-sevə ifa etdikləri mahnı və rəqs havalarının adları və yaradıcılarının kimliyi tanınmışdır.

Professional musiqi yaradıcılığında bəstəkarların yaratdıqları irihəcmli əsərlərlə (simfoniya, opera, balet, oratoriya, kantata və s.) yanaşı kiçikhəcmli mahnı və rəqs melodiyaları da yer almaqdadır. Bu melodiyalarla xalq musiqi nümunələrindəki forma, onların quruluş tərkibi eyni olmalarına baxmayaraq, fərqli xüsusiyyətlərə də malikdirlər. Belə ki, bəstəkar yazdığı mahnıda musiqinin bütün tələblərinə riayət edərək, şeir mətnindəki hecaların melodiyanın səslərində düzgün yerləşməsinə, oxunuş zamanı hər bir sözün aydın tələffüz olunmasına nail olur.

Bəstəkar mahnılarının daha bir fərqli üstünlüyü melodiyadaxili yönəlmələrin (modulyasiya) lad-məqam qanunlarına uyğun şəkildə qurulmasıdır. Yəni müəyyən bir məqam üstündə bəstələnmiş mahnının melodik məzmununda başqa bir məqama yönələn və sonda öz əvvəlki məqamına qayıdaraq tamamlanan müvəqqəti modulyasiya baş verir. Mahnının bu xüsusiyyəti onu muğam dəstgahlarının

tərkibində yer alan "təsnif"lə uyğunlaşdırır. Belə ki, "təsnif"in də quruluşunda aid olduğu məqamdan digərinə keçid edən melodik cümlələrdən istifadə edilir. Bu səbəbdəndir ki, təsnif iki şöbənin arasında səslənərək, özündən əvvəlki şöbəni tamamilə fərqli məqama aid olan sonrakı şöbə ilə birləşdirir.

Təsnif xarakterli mahnılarda yönəlmələr aid olduğu muğamın şöbələrinin istinad pərdələrinə uyğun şəkildə qurulur. Nümunə kimi "Burdan bir ceyran keçir" adlı uçhissəli formada bəstələnmiş "Şur təsnifi"ni nəzərdən keçirək; **[2; səh.158]**

**1-ci bənd:** Burdan bir ceyran keçir,
Keçir, nigaran keçir.
Sevgilim, gəl görüşək,
Vaxt ötür, zaman keçir.

Nəqarət: Qaragöz yarım mənim,
Əhdim, ilqarım mənim.
Sənsiz yaşaya bilmərəm,
Sənsən baharım mənim.
Gün gələr, batar, gedər,
Durnalar qatar gedər.
Vəfalıya can qurban,
Bivəfa atar gedər.

**2-ci bənd:** Mən aşiq bir canana,
Bir cana, bir canana.
Hər yetənə can vermə,
Canı ver bir canana.

**Nəqarət**

Təsnif iki "bənd" və bir "nəqarət"dən ibarətdir. Lakin "nəqarət" iki fərqli məqama yönələn periodu (hissəni) özündə cəmləşdirir. Dediklərimizin daha geniş şəkildə təhlili belədir ki, mahnı "Şur" muğamının mayə (tonika) pərdəsində səslənən "bənd"lə başlayır. Onu da qeyd etməliyik ki, "Şur" muğamının əsas kökü "sol" pərdəsinə istinad edir. Bənddən sonra "nəqarət"in ilk periodu (2-ci hissə) "sib" mayəli "Rast" məqamına keçid edir. Burada şeir mətninin ilk dörd sətri "Bayatı-Qacar" muğamının "Zəminxarə" şöbəsinin intonasiyasında oxunaraq "mayə" pərdəsinə qayıdır. Növbəti dörd sətir isə (3-cü cümlə) "Şur"un mayəsindən VI pillə yuxarıda, "mi" mayəli "Zabul segah" muğamının intonasiyasında səslənir və sonda yenidən əsas məqama (Şur) qayıdaraq tamamlanır.

Təsnifin bəstəkar tərəfindən bu cür sistemli şəkildə qurulması onun məzmununu daha maraqlı və rəngarəng edir. Təsnifin daxilindəki belə əlavələr onun ümumi formasını zənginləşdirərək, periodların (hissələrin) sayının artmasına zəmin yaradır.

Mahnı ilə təsnifi fərqləndirən xüsusiyyətlərdən biri də onların ifa məziyyətləridir. Yuxarıda qeyd olundu ki, təsniflə mahnı eyni quruluşa, eyni xarakterə malik ola bilər. Bəs onları bir-birindən nə ayırır? Əvvəla qeyd edək ki, istər xalq mahnısı, istərsə də bəstəkar mahnıları müəyyən bir adla ifa edilir. Yəni hər bir mahnının melodik məzmunu və şeir mətninə uyğun adı mövcuddur. Təsnif isə hər hansı bir muğam dəstgahının tərkibində şöbələrarası ifa edildiyindən öz adı ilə deyil, aid edildiyi (özündən əvvəl səslənən) şöbənin adı ilə təqdim olunur. Məsələn, "Şikəsteyi-fars rəngi", "Hicaz rəngi", "Bayatı-İsfahan rəngi", "Şüştər rəngi" və s. Nümunə kimi istedadlı musiqiçi, bir çox nəğmələrin müəllifi olmuş Bəhram Nəsibovun "Var gülüşündə" adlı məşhur mahnısını qeyd edə bilərik. Onu da vurğulamalıyıq ki, bu mahnı ifaçılar arasında "Çahargah təsnifi" kimi tanınmaqdadır; **[4; səh.211]**

**1-ci bənd:** Al-əlvan geyib çəmən,
Gül açır tər yasəmən.
Sən danış, qoy səsini
Dinləyim doyunca mən.

**Nəqarət:** Yazın, baharın nəfəsi var gülüşündə,
Sevib-sevilmək həvəsi var gülüşündə.
Baxışın canlar, yar,
Aşiqi dərdə salır, yar.

Gülüşün nəğmə kimi
Gah enir, gah ucalır, yar.
Yazın, baharın nəfəsi var gülüşündə,
Sevib-sevilmək həvəsi var gülüşündə.

**2-ci bənd:** Xəlqimin gözəlisən,
Sevgimin əzəlisən.
Doymaram sözlərindən,
Hər sözü məzəlisən.

**Nəqarət**

Belə təsniflər ayrıca bir mahnı kimi ifa edilərkən, xanəndələr "nəqarət"in daxilindəki müəyyən istinad pərdələrində kiçik bir muğam parçası da səsləndirirlər. Lakin bu muğam parçasının şeir mətni (əasən, "qəzəl") mahnının mətni ilə uyğunluq təşkil etməlidir. Bu isə xanəndənin istedadından, zövqündən və seçimindən asılıdır. Nümunə kimi bu gün Azərbaycan Radiosunun qızıl fondunda saxlanılan, musiqisi Bəxtiyar Kərimova, sözləri isə Arif Cəfərova aid "Eşqin göylərində" adlı mahnını göstərə bilərik. "Qatar təsnifi" kimi tanınan mahnının məşhur ifaçılarından sayılan, Azərbaycanın tanınmış xanəndəsi Sara Qədimova tərəfindən səsləndirilən nəğmədə Əliağa Vahidin "Qəm çəkmə könül, məclisə canan yenə gəldi" rədifli qəzəlindən istifadə edilmişdir **[5]**. Təsniflə "qəzəl"in məzmunundakı yaxınlığı onların şeir mətnlərindən izləmək mümkündür. Onu da qeyd etməliyik ki, mahnı musiqişünas-jurnalist Qafar Namazəliyevin "Azərbaycan xalq mahnı və təsnifləri" toplusunda "Mahur-hindi təsnifi" kimi təqdim olunmuşdur; **[2; səh.156]**

**1-ci bənd:** Eşqin göylərində uçan bir quşam,
O şən baxışlara heyran olmuşam.
Ey dilsiz könlümü ovlayan gözəl,
Səni küsdürmüşəm, peşman olmuşam.

Nəqarət: Ayrılıq yamandır, mən necə dözüm?
Sən gələn yollarda qalıbdır gözüm.
Qınayan olmasa, sənin dalınca
Qapınıza qədər gələrəm özüm.

**2-ci bənd:** Bilirəm ki, eşqimiz səfasız olmaz,
Bilirəm ki, sevgilim vəfasız olmaz.
Dözərəm yolunda hər çətinliyə,
Məhəbbət qüssəsiz, cəfasız olmaz.

**Nəqarət**

Məhəbbət mövzusunda yazılmış şeir mətninə xanəndənin "qəzəl" seçimi təqdirə layiqdir. Belə ki, mahnının mətnində öz sevgilisini küsdürüb peşman olan aşiq, "qəzəl" də cananının yenidən qayıdışına sevinir;

Qəm çəkmə, könül, məclisə canan yenə gəldi,
Bu qalibi-biruhə verən can yenə gəldi.
Bir neçə gün olmuşdu günüm tirə qəmindən,
Şad etdi məni ol mahi-taban, yenə gəldi.
Ahəstə yığıb başına öz ləşkəri-zülfün,
Könlüm evini etməyə viran yenə gəldi.
Sal boynuma, canana dedim, həlqeyi-zülfün,
Güldü, dedi, divaneyi-dövran yenə gəldi.
Fərhadə deyin, eyləməsin dağdə fəryad,
Bu məclisə ol xosrovi-xuban yenə gəldi.
Qan ağlama, bülbül, dəxi gülzar həvəsində,
Əyyami-xəzan keçdi, gülüstan yenə gəldi.
Vahid, bilir aləm məni, ol zülfə əsirəm,
Sən çox demə, Məcnuni-biyaban yenə gəldi.

**Nəticə**

Apardığımız tədqiqatdan belə nəticəyə gəlirik ki, mahnı ilə təsnif başqa-başqa janra aid edilməsinə baxmayaraq oxşar formaya, quruluş tərkibinə malikdirlər. Təsniflərin tərkibində modulyasiya olunan periodların mövcudluğu mahnının ümumi məzmununu və həcmini artıraraq, onun çox zaman üçhissəli formada ifasına səbəb olur. Digər tərəfdən, mahnılar hər zaman öz adını qoruya bilirsə, təsniflər ifa edildiyi muğam şöbələrinin adları ilə tanınır ki, bu da çox zaman mahnı adlarının unudulması ilə nəticələnir.

Bu gün konsert səhnələrində səsləndirilən xalq mahnılarının, bəstəkar nəğmələrinin ifasında bəzən muğam parçaları da ifa edilməkdədir. Lakin inanırıq ki, təqdim etdiyimiz bu məqalə ifaçılarımıza "mahnı" ilə "təsnif"in oxşar və fərqli xüsusiyyətlərini dolğun şəkildə aşılayacaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan xalq mahnıları. I cild. Tərtib edən: Siyavuş Kərimi. Bakı, "Öndər nəşriyyatı", 2005, 168 s.
2. Azərbaycan xalq mahnı və təsnifləri. Tərtib edəni: Qafar Namazəliyev. Bakı, "İşıq", 1985, 196 s.
3. Quliyev T.Ə. Ürək mahnıları. Bakı, "L.T.B.", 2000, 174 s.
4. Nəsibov A.B. Nəğmələrdə yaşayan ömür. Bəhram Nəsibovun mahnıları. I cild. Bakı, "Elm və təhsil", 2021, 352 s.

**Saytoqrafiya**

5. https://youtu.be/JdXZu0xv5_U?si=BeGQa5TEKqH-RG42

***Azərbaycan Milli Konservatoriyasının"Muğam (xanəndə)" kafedrasının müəllimi, əməkdar artist***

**Nuriye Huseynova**

## SIMILAR AND DIFFERENT FEATURES OF THE "SONG" GENRE AND "CLASSIFIED"

In the article, the similar and different features of «song» and «tasnif» related to separate genres have been extensively studied. First of all, information was given about their shape and structural composition, then the essence of «tasnif» in the content of mugham dastgahs was explained.

Interesting facts about the merits of writing the «tasnif» related to professional music by the composer, as well as about the momentary changes in its composition, caused by the temporary orientation, are explained in the article.

The songs and "tasnif" presented as examples in the article are illuminated with poetry texts reflected in valuable sources.

**Keywords:** *song, tasnif, form, period, structural composition, departments of mugham*

.

**Нурие Гусейнова**

## СХОДНЫЕ И РАЗЛИЧНЫЕ ХАРАКТЕРИСТИКИ ЖАНРА «ПЕСНИ» И «КЛАССИФИКАЦИИ»

В статье широко изучены сходные и различные особенности «песни» и «классификации», относящиеся к отдельным жанрам. Прежде всего давалась информация об их форме и структурном составе, затем объяснялась суть «классификации» в содержании мугамных дастгях.

В статье изложены интересные факты о достоинствах написания композитором «Классификации», относящейся к профессиональной музыке, а также о моментальных

изменениях, вызванных временным направлением в ее составе.

Песни и классификации, представленные в качестве примеров в статье, освещены поэтическими текстами, отраженными в ценных источниках.

**Ключевые слова:** *песня, классификация, форма, период, структурный состав, отделы мугама.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 18.10.2024**
**Son daxilolma tarixi:08.11.2024**